Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Ermənistanın hərbi və insanlıq əleyhinə cinayətləri barədə Prezident Əliyev hər dəfə yeni tutarlı faktlar açır...

**Son 100 ildə Azərbaycan xalqına qarşı ermənilər və onların havadarları tərəfindən məqsədyönlü siyasət həyata keçirilməklə, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və siyasi müstəqilliyi əleyhinə təcavüz cinayətləri, qədim və tarixi torpaqlarımızda bütövlükdə XX və XXI əsrlərdə yerli əhaliyə qarşı soyqırımı, insanlıq əleyhinə cinayətlər, müharibə və terror cinayətləri törədilib.**

Ən acı həqiqət isə bundan ibarətdir ki, bütün bu beynəlxalq hüquqazidd əməllər Ermənistan dövləti tərəfindən bu gün də davam etdirilir, törədilən cinayətlər cəzasız qalır. Ermənilər "Böyük Ermənistan" dövləti yaratmaq xülyaları ilə bu gün də nəinki ölkəmizin, bütövlükdə dünyada sülhün və təhlükəszliyin qorunub saxlanmasına, habelə regionun digər dövlətlərinin ərazi bütövlüyünə təhdid hesab edilirlər. Ona görə də hesab edirik ki, azərbaycanlılara qarşı törədilən cinayətlər ilk növbədə beynəlxalq hüquq elmi müstəvisində araşdırılmalı, baş verən cinayətlər üzrə ədalətli məsuliyyət tədbirləri tətbiq olunmalı, bir sözlə, baş verən cinayətlərə görə siyasi və ya hüquqi formada məsuliyyət labüd olmalıdır.

**Artıq BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın cinayətlərini araşdırır**

Azərbaycan 44 günlük müharibədə Ermənistanı məğlub edəndən sonra onların törətdiyi vəhşiliklər daha da aydın görünməyə başladı. İşğaldan azad edilən ərazilərə xarici nümayəndələr səfər edərkən gördükləri vəhşiliyi Xirosima və Naqasaki ilə müqayisə edirlər. Azərbaycan həm erməni vəhşiliyinin dünyaya çatdırılması, həm də Ermənistanın beynəlxalq müstəvidə, hüquq qarşısında cavab verməsi istiqamətində ciddi fəlaiyyətə keçib. Artıq BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi Ermənistan və Azərbaycan arasında "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın pozulması ilə bağlı məhkəmə prosesi çərçivəsində 18-19 oktyabr tarixlərində dinləmələr təyin edib. Dinləmələr Azərbaycanın tələbi ilə bağlıdır. Pandemiya ilə əlaqədar olaraq dinləmələr hibrid formatda keçiriləcək. Yəni bəzi hakimlər dinləmələrdə şəxsən iştirak edəcək, digərləri isə videobağlantı vasitəsi ilə əlaqə saxlayacaqlar. Tərəflərin nümayəndələri dinləmələrdə ya şəxsən, ya da videobağlantı ilə iştirak edə bilər. Qeyd edək ki, Azərbaycan "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın pozulmasına görə Ermənistanı Beynəlxalq Ədalət Məhkəməsinə verib. Azərbaycan tərəfi bəyan edir ki, son 10 ay ərzində tərəflərin razılığa gəlmək cəhdləri çıxılmaz vəziyyət yaradıb. Bu səbəbdən də Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsindən "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın pozulmasına görə Ermənistanı məsuliyyətə cəlb etməyi, ölkəyə və xalqa dəymiş ziyanı ödəməyi xahiş edir.



**Bu yöndə ən aktiv təbliğatı Prezident İlham Əliyev aparır**

Qazanılmış tarixi qələbə və Ermənistanın əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından ən aktiv təbliğatı Prezident İlham Əliyevin apardığını desək, yanılmarıq. Ölkə başçısı keçirdiyi görüşlərdə, etdiyi səfərlərdə bu barədə ətraflı izahatlar verir, çıxışlar edir. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayılda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib ki, mifologiyaya son qoyuldu: "Bizə qarşı olan bütün digər erməni iddialarına tədricən son qoyulmalıdır. Mən bunu demişəm və mən söz deyəndə elə-belə söz demirəm. Bugünə qədər nəyi demişəmsə, hamısını da etmişəm. Ona görə bundan sonra da Ermənistan cəmiyyətində real vəziyyətin düzgün təhlili getməlidir. Artıq mifologiyadan əl çəkməlidirlər. Böyük Ermənistan xülyasından əl çəkməlidirlər. Dənizdən dənizə qədər mifik Ermənistan xülyasından əl çəkməlidirlər. Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidirlər və əl çəkəcəklər. Bunun başqa yolu yoxdur. Məcbur edəcəyik onları. Əgər kimsə hesab edir ki, müharibə bitdi və indi hər şey, necə deyərlər, əvvəlki məcraya düşəcək, səhv edir. Müharibə bitdi, biz qalib gəldik, yeni reallıq yaratdıq, hər kəs bu reallıqla hesablaşmalıdır və hesablaşacaq. Mən deyəndə ki, biz imkan vermərik Ermənistanda yenə də bizə qarşı hansısa təxribat hazırlansın, mən bunu nəzərdə tuturam. Bizim legitim hüququmuzdur, əgər təhlükə görsək, əgər təhlükənin kiçik bir təzahürünü görsək, biz lazımi addımı atacağıq və heç kim bizi dayandıra bilməz, heç kim bizim qabağımızda dura bilməz".

**Prezident Ermənistanın işğalçılıq və faşist siyasətinin mahiyyətini açıb göstərdi**

Məlum olduğu kimi, müharibə dövründə düzgün informasiya siyasəti böyük əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti İ.Əliyevin rəhbərliyi altında müharibə dövrü üçün müəyyənləşdirilən və həyata keçirilən siyasət həm hərb meydanında, həm də informasiya cəbhəsindəki üstünlüklərimizi təmin etdi. Daxili auditoriyaya mərkəzləşmiş qaydada hərbi informasiya mərkəzindən döyüşlərin gedişi və cəbhədə qazandığımız uğurlarla bağlı operativ məlumat verildi, dünyanın ən məşhur televiziya kanalları olan "CNN", "Əl-Cəzirə", "Euronews", "CNN-Türk", "Rossiya 1", Türkiyənin "TRT Haber", Rusiyanın Birinci kanalına, eləcə də Avropa və Asiya ölkələrinin məşhur kanallarına verilən informasiyalarda Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti tam ifşa edildi. Eləcə də, uzun illərdən bəri işğal altında olan torpaqlarımızda törədilən vandalizm aktları, tarixi mədəniyyət abidələrinin məhv edilməsi, həmin ərazilərdə qeyri-qanuni köçürülmə siyasətinin həyata keçirilməsi, 27 sentyabrdan başlayaraq isə Ermənistanın mülki əhalimizə qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlaması konkret fakt və sənədlərlə dünya birliyinin diqqətinə çatdırılırdı. Qətiyyətli siyasi iradə nümayiş etdirən İ.Əliyev hərbi əməliyyatların getdiyi 44 gün ərzində xarici informasiya kanallarına verdiyi 30-a yaxın müsahibələrinin hər birində münaqişənin əsl mahiyyətini, problemə dünyanın ikili standartlar əsasında yanaşmasının fəsadlarını, Ermənistanın işğalçılıq və faşist siyasətinin mahiyyətini açıb göstərdi. Prezident bu yöndə olan aktiv təbliğatını post-müharibə dönəmində də uğurla aparır.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**